**Ötən 14 ildə Prezident İlham Əliyev ölkəmizin inkişafına nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib. Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Bu siyasət həm də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin məkanına çevrilməsini təmin edib. Odur ki, fəaliyyəti ilə ölkə cəmiyyətindən daim dəstək alan, müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılanır.**

**Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı Milli Məclisin deputatları öz fikirlərini qəzetimizə bölüşdülər.**



# Ümummilli etimad ünvanı







## Azərbaycan xalqı öz Prezidentinə inanır və ona arxalanır

**Bəxtiyar ƏLİYEV,**
*Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, AMEA-nın müxbir üzvü:*

- Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ötən 14 ildə yürütdüyü tam müstəqil siyasəti ilə bu gün Azərbaycan nəinki regionda, Avropada özünəməxsus yer tutan güclü iqtisadiyyata, orduya və daxili, xarici siyasətə malik olan nüfuzlu dövlətə çevrilib.

Cənab Prezidentin həyata keçirdiyi daxili və xarici siyasətin, uğurlu islahatların nəticəsidir ki, Azərbaycanda yoxsulluğun səviyyəsi 5 faizdən də aşağı düşüb, işsizlik də, demək olar ki, həmin səviyyəyə endirilib. Ölkəmizin regionlarında bu gün inkişaf göz qabağındadır. Hər il Azərbaycana turist axınının artdığının şahidi oluruq. İstər Asiyadan, istərsə də Avropadan turist axını müşahidə olunmaqdadır.

Azərbaycan dünyanın ən güclü idman ölkəsinə, yüksək mədəniyyət diyarına çevrilib. Eyni zamanda mədəniyyətlərarası dialoqun mərkəzi hesab olunur. Respublikamız artıq humanitar məsələlərin həllini müzakirə edən çox mötəbər bir foruma evsahibliyi edən dövlətdir.

Bütün bunlar Azərbaycanın dünyada artmaqda olan nüfuzunu göstərir. Təsadüfi deyildir ki, bu uğurların sayəsində BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, mühüm məsələlərin həllində öz töhfəsini verib. Bu gün Avropa İttifaqı ilə çox yüksəksəviyyəli qarşılıqlı əməkdaşlıq, tərəfdaşlıq münasibətləri qurulub.

Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən mühüm bir tərəfdaşa çevrilib. Vaxtilə öz daxilində layihələr həyata keçirmək üçün kredit alan Azərbaycan artıq investisiya cəlb edən bir respublikadır. Eyni zamanda böyük layihələri maliyyələşdirən güclü iqtisadiyyata malik dövlət kimi çox böyük maraq kəsb edir.

Bu yaxınlarda Böyük İpək yolunun bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun - Şərqlə Qərbi birləşdirən körpünün istifadəyə verilməsi də bu uğurların sırasına yazıldı. Çindən başlayaraq Londona qədər gedən yolun marşrutunun Azərbaycandan keçməsi ölkəmizin Şərqlə Qərbin ticarət, iqtisadi əlaqələrinin daha da genişlənməsinə, dərinləşməsinə töhfəsini verir.

Bu gün Azərbaycanı narahat edən bir nömrəli problem Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafında 7 rayonunun işğalıdır. Azərbaycan Prezidenti iştirak etdiyi bütün beynəlxalq konfransların tribunalarında bu məsələni təkidlə qaldırır və ölkəmizin haqq səsini dünyaya çatdırır. Dövlət başçısının BMT-də yüksək tribunada Ermənistanın cinayətkar rəhbəri S.Sarkisyanın Xocalıdakı soyqırımıda bilavasitə iştirak etdiyini bildirməsi və buna qarşı beynəlxalq qurumların tədbir görməsini tələb etməsi bir daha göstərdi ki, Prezident İlham Əliyev Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi üçün bütün lazımi işləri görür.

Bu gün Azərbaycanın qüdrətli ordusu var və Ali Baş Komandanın əmri ilə Silahlı Qüvvələrimiz ərazi bütövlüyümüzü istənilən vaxt təmin edə bilər. Lakin Azərbaycan qan tökülməsin deyə münaqişənin sülh danışıqları ilə həllinə razılaşır. Təəssüflər olsun ki, bu prosesdə iştirak edən bəzi dövlətlər ikili standartlardan əl çəkmirlər. Ümid edirik ki, tezliklə həmin dövlətlərin mövqelərində dəyişikliklər baş verəcək.

Bütün bu uğurları, sürətli inkişafı öz həyatında hiss edən ölkə əhalisi cənab Prezidentin siyasətini tam dəstəkləyir. Son keçirilən referendum bir daha göstərdi ki, xalq cənab İlham Əliyevi sevir, onun apardığı daxili və xarici siyasəti dəstəkləyir.

Regionların inkişaf etməsi, islahatların həyata keçirilməsi, korrupsiyaya qarşı mübarizənin aparılması, multikulturalizm siyasəti və s. istiqamətdə aparılan işlər birbaşa olaraq Prezident İlham Əliyevin xidmətləridir. Xalq Prezidentinə inanır, ona arxalanır. Ölkəmizin qüdrətlənməsi yolunda cənab İlham Əliyevə hər bir Azərbaycan vətəndaşı, ziyalısı daim öz dəstəyini verəcək.

## Hər addımında milli maraq və mənafeləri uca tutan Prezident

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri:*

- Müstəqilliyin bərpasından sonra Azərbaycan dövlətinin yaşadığı müasir tarixə nəzər salsaq, aydın şəkildə görərik ki, respublikamız bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilib. Son 14 ildə Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycan siyasi və iqtisadi cəhətdən xeyli inkişaf edib, beynəlxalq aləmdə mövqeləri daha da güclənib.

Cənab İlham Əliyevin prezidentliyi dövründə həqiqətən ölkəmizdə müsbət dəyişikliklər baş verib. Bu dəyişikliklər hər birimizin gözü önündə reallaşıb. Hər bir vətəndaşımızın rahat yaşaması üçün təmin olunan rifah bugünkü Azərbaycan reallığının ən mühüm nemətlərindən biridir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət əsasında Prezident İlham Əliyev 14 il ərzində Azərbaycan iqtisadiyyatını əhəmiyyətli dərəcədə inkişaf etdirib. Azərbaycan dünyanın iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkəsi imicini qazanıb. Bütün bu amillər xalqımızın cənab İlham Əliyevə inam və etimadını daha da gücləndirib. Ölkəmizin inkişafı, insanların rifahının yaxşılaşdırılması naminə Prezidentin təşəbbüsü ilə böyük layihələrin həyata keçirilməsi və bu yöndə daha əhəmiyyətli niyyətlərin ortada olması, eləcə də Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması kompleks halda ölkənin yeni imicini formalaşdırıb. Gündən-günə Azərbaycanın bu imici daha da zənginləşir, müasir dövrün tələblərinə uyğunlaşır və beləliklə də gözlərimizin önündə yeni, müasirləşən, modernləşən, müasir dünya birliyinin layiqli üzvünə çevrilmiş Azərbaycan formalaşıb.

Bütün bunların hamısı Azərbaycanın bugünkü reallığı və siyasi həyatının gerçəkliyi olaraq vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda dövlət başçısının təşəbbüsü ilə reallaşmaqda olan layihələr onu deməyə əsas verir ki, Prezident İlham Əliyev bundan sonra da Azərbaycanın inkişafı naminə müəyyənləşdirdiyi siyasəti uğurla həyata keçirəcək.

Hər bir vətəndaşın sosial müdafiəsinin təmin olunması və insanlara layiqli həyat şəraitinin yaradılması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin prioritetidir. Praqmatik liderlik keyfiyyətlərinə malik Prezident İlham Əliyev son 14 ildə Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirib. Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən cənab İlham Əliyevin yürütdüyü siyasət onun dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir.

Prezident İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulub. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirərək qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaq. Öz liderinə inanan, güvənən Azərbaycan xalqı da əmindir ki, gənc müstəqil ölkəmiz bu uğurları ilə yaxın gələcəkdə daha da qüdrətli dövlətə çevriləcək.

## Alternativsiz siyasi lider

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
*Milli Məclisin deputatı:*

- Azərbaycan dövləti və xalqı Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, inkişafa doğru məhz Heydər Əliyevin təməlini qoyduğu yol ilə inamla irəliləməkdədir. Ötən 14 ilin siyasi, iqtisadi, sosial mənzərəsi göstərir ki, Prezident İlham Əliyev ümummilli liderin siyasi kursunun varisliyini təmin edə bilən alternativsiz lider olduğunu təsdiqləmiş, ictimai inamı tam doğrultmuşdur.

Ölkəmizin bu dövrdə sosial-iqtisadi inkişafı, dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin irsinin davam etdirilməsinin, ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirməklə, müstəqilliyimizi möhkəmləndirməklə, dövlətçiliyimizi qüdrətləndirməklə Heydər Əliyevin ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi aydın sabahlara aparır.

Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən cənab İlham Əliyev qısa bir zaman ərzində geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən liderə çevrilib. Fəaliyyət göstərdiyi bütün sahələrdə qazanılmış nailiyyətlər onun siyasi prioritetinə yeni ştrixlər əlavə edib.

Əsl liderlik həm də kütlələri öz ətrafında birləşdirmək bacarığında ifadə olunur. Bu missiya cəmiyyətin bütövlüyünün və sabitliyinin qorunmasına, vətəndaş sülhü və həmrəyliyinin möhkəmləndirilməsinə istiqamətlənir. Azərbaycan Prezidenti İlham Əliyevin də şəxsiyyət və lider kimi böyüklüyü onun ideyalarının birləşdirici mahiyyətindən, ilk növbədə hər bir vətəndaşın maraqlarına hesablanmasından irəli gəlir. Dövlət başçısının milli birlik və həmrəylik konsepsiyası dərin məzmun yükü ilə cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ona xalqı öz ətrafında birləşdirmək imkanı vermişdir.

Ümumiyyətlə, statusundan asılı olmayaraq insanın hansı ideyanın daşıyıcısı, hansı əməlin sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Bu mənada cənab İlham Əliyevin respublikada həyata keçirdiyi sosial-iqtisadi islahatlar həm də dövlət başçısının yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürlərindən biri kimi qiymətləndirilməlidir. Ümummilli liderin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq oldu. Dövlət başçısının rəhbərliyi ilə görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqəti bir daha təsdiqləyir.

## Azərbaycanı dünyada ucaldan dövlət başçısı

**İqbal MƏMMƏDOV,**
*Milli Məclisin deputatı:*

- Uğurları qlobal miqyasda qəbul edilməyən ölkə beynəlxalq aləmdə nüfuz sahibinə çevrilə bilməz, yüksək imicə malik olmaz. Çox uzağa getmədən elə postsovet məkanından bu barədə kifayət qədər fakt göstərmək olar. Hər ötən ili bütün sahələrdə müsbət göstəricilərlə başa vuran Azərbaycan isə özünün liberal prinsiplərə əsaslanmış inkişaf modellərini formalaşdırmaqla, o cümlədən qlobal iqtisadi böhranlardan layiqincə çıxmaqla yanaşı, həm də beynəlxalq imicini, geoiqtisadi və geosiyasi rolunu artıraraq regionun lider dövləti və dünya miqyasında söz sahibi statusunu qazanıb.

Bütün bu uğurlar dünya ictimaiyyətinin qəbul etdiyi gerçəklikdir. Bu gerçəkliyin əsası isə vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub, istiqamətləri müəyyən edilib. Ümummilli liderin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyevin əzmkarlığı, qətiyyəti, xarizması, yüksək siyasi və liderlik keyfiyyətləri ilə həyata vəsiqə alması bugünkü nailiyyətlərimizi təmin etmişdir. İlk dəfə 2003-cü ilin prezident seçkilərində xalqın yüksək etimadını qazanaraq prezidentlik missiyasına başlayan cənab İlham Əliyev ötən 14 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu və inkişaf strategiyasını layiqincə davam etdirib. Ona görə 14 il müstəqil Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üçün onilliklərə bərabər inkişaf dövrüdür desək, yanılmarıq.

Ölkəmizdə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini dəfələrlə sübuta yetirib. Bunun əsas səbəbi cənab Prezidentin fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin əksəriyyətinin səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib.

Cənab İlham Əliyevin tamam olan 14 illik prezidentlik dövrü olduqca mühüm siyasi, sosial-iqtisadi, mədəni-humanitar hadisələrlə əlamətdardır. Onların arasında diqqət çəkən əsas məqamlardan biri 14 ildə Azərbaycanın bölgələrinin inkişaf etməsidir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənib, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılıb. Bu sırada Lerik rayonunda görülən işlər də təqdirəlayiqdir. Ötən 14 ildə ölkənin bütün bölgələri kimi, Lerik rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Ölkənin hər yerində yaşanan inkişaf Lerik rayonunun simasında da aydın müşahidə olunur.

Lerik istər iqlimi, istər yerləşdiyi coğrafi məkan baxımından əksər rayonlardan fərqlənir. Ona görə ki, bu rayonda ilin çox hissəsində soyuq və sərt, yayda isə sərin iqlim şəraiti hökm sürür. Buna baxmayaraq, başı qarlı uca zirvələri, bumbuz və gur sulu çayları, təmiz və saf havası olan, yayda yaşıllığa bürünən Lerik gözəlliyi və təbiətinin əsrarəngiz mənzərəsi ilə insanın ruhunu oxşayır. Son illərin real mənzərəsi Lerikin ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu təsdiq edir.

Tarixən Azərbaycanın bütün dağlıq rayonlarının qarşılaşdığı problemlər əsasən eyni olub. Təbii qazın olmaması, avtomobil yollarının günün tələblərinə cavab verməməsi, çay daşqınlarının yaşayış məskənlərinə vurduğu ziyanı minimuma endirmək üçün bəndlərin olmaması və s. Bütün bunlar uzun illər dağ rayonlarının sakinlərini narahat edən əsas problemlər olub. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti məhz bu cür problemlərin yoluna qoyulmasına dair faktlarla zəngindir. "Bizim əsas vəzifəmiz, əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin. Hər bir bölgədə abadlıq-quruculuq işləri aparılsın, yollar çəkilsin, qaz xətləri çəkilsin, işıq çəkilsin ki, insanlar daha da yaxşı yaşasınlar" deyən Prezidentin iqtisadi konsepsiyasında dağlıq rayonların inkişafı, uzun illərdən bəri yığılıb qalmış problemlərin həlli ayrıca istiqamət təşkil edir.

Lerik rayonunun timsalında biz bunu aydın görürük. Ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illər rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, möhtəşəm tikililərin təməli qoyulmuş və uğurla başa çatdırılmışdır. Rayonda geniş tikinti, quruculuq, abadlıq işləri aparılmış, ucqar dağ kəndlərinə yollar çəkilmiş, körpülər inşa olunmuş, sakinlərin su, elektrik təchizatı yaxşılaşdırılmışdır.

Bu dövrdə tarixdə ilk dəfə Lerikə təbii qaz xətti çəkilib. Lerikdə sovet dövründə təbii qaz yox idi. Çünki rayonun təbii şəraiti qaz kəmərlərinin çəkilişini çətinləşdirirdi. Ona görə bu məsələ dəfələrlə gündəliyə gətirilsə də, reallaşmamışdı. Təbii qazın olmaması bir çox problemlərə, ən əsası, meşələrin qırılmasına gətirib çıxarırdı. Lakin budur, dövlətimizin iqtisadi imkanlarının yüksəlməsi ən ucqar dağlıq rayonlardan biri olan Lerikə qısa zamanda magistral qaz kəmərinin çəkilməsinə imkan verdi. Məhz ölkəmizin hər bir bölgəsinin yüksəlişinə həssaslıqla və diqqətlə yanaşan Prezident İlham Əliyevin göstərişinə əsasən qaz xəttinin çəkilişi qısa vaxt ərzində reallığa çevrildi. Cəmi bir il ərzində Lerikin qaz problemi həllini tapdı. Beləliklə, rayonumuzun sakinlərinin xəyal edə bildiyi bir hadisə gerçəkliyə çevrildi, təbii qaz həmişəlik məişətimizə daxil oldu.

Dövlət başçısının Lerikə səfərlərinin hər biri isə bölgənin sosial, iqtisadi və mədəni həyatının inkişafında yeni mərhələnin başlanğıcını qoyub, canlanma yaradıb. Hər səfərdən sonra rayonun problemlərinin aradan qaldırılması istiqamətində konkret fəaliyyət proqramları həyata keçirilib. Bu inkişaf Lerikin qüruru olduğu qədər, ölkəmizdən kənarda Azərbaycanın gözəl tanıtımıdır. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişmişdir. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

Prezident İlham Əliyevin uğurlu fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə gətirib çıxarıb. Bu mənada ulu öndərin siyasi kursunun davamını dəstəkləyən xalqımız bundan sonra da cənab İlham Əliyevin ətrafında sıx səfərbər olacaq. Odur ki, xalqdan daim dəstək alan, ölkəmizi qüdrətləndirən, yüksəldən, milli maraqları dünyada layiqincə təmsil edən Prezident İlham Əliyev xalqımızın alternativsiz lideridir.

## Müstəqilliyin, güclü dövlətçiliyin və inkişafın təminatçısı

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı:*

- Dövlət müstəqilliyinin üçüncü onilliyini yaşayan Azərbaycanın inkişafını, yüksəlişini, beynəlxalq arealda qazandığı nüfuzu qiymətləndirərkən ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanını əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır. Azərbaycanın indiki sürətli yüksəlişinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.

Dahi şəxsiyyət yalnız Azərbaycanın inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməyib, bu strateji kursu davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider yetişdirib. Ölkəmizin strateji inkişaf kursunu yeni dövrün tələblərinə uyğun şəkildə, yüksək dinamizmlə həyata keçirən Prezident İlham Əliyev fəaliyyəti və verdiyi vədləri əməli işi ilə doğrultmaqla ulu öndər Heydər Əliyevin layiqli siyasi davamçısı olduğunu sübuta yetirib, milli ideyalara sadiqliyin mükəmməl nümunəsini yaradıb.

Azərbaycan xalqı ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə Heydər Əliyev siyasi kursunun davamına, xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Reallıq da ondan ibarətdir ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 14 il ərzində Azərbaycan çox mühüm keyfiyyət dəyişiklikləri yaşayıb. 14 ilin bəzi mühüm yenilikləri fonunda bunu aydın görmək mümkündür. Bu dövrdə ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib, "Ümid", "Abşeron" kimi perspektivli qaz yataqları kəşf olunub, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinə başlanılıb və başa çatdırılıb, ölkədə yol-nəqliyyat sistemi, infrastruktur müasirləşdirilib. "Cənub qaz dəhlizi"nin çəkilişi, bütövlükdə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızın Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin edib. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini daha da artırıb.

2003-2017-ci illərin reallıqları deməyə əsas verir ki, Prezident İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Fəxarət doğuran digər məqam isə Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti, onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Dövlət başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Yüksək siyasi iradəsi, qətiyyəti, məqsədə doğru inamla irəliləməsi, praqmatizmi, təvazökarlığı və sadəliyi, ən əsası, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olması cənab Prezidentə xalqın böyük rəğbətini qazandırıb. Beynəlxalq qurum və təşkilatlar da birmənalı şəkildə etiraf edirlər ki, İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycanın inkişafı sürətlənib, beynəlxalq nüfuzuna görə dünyanın lider dövlətlərindən birinə çevrilib.

Bu yüksəlişin davamlı olması isə hər bir azərbaycanlının ümdə istəyidir. Bu mənada Prezident İlham Əliyevin timsalında hər bir Azərbaycan vətəndaşı, hər bir seçici ölkənin tərəqqisinin simvolunu görür, bu böyük şəxsiyyəti müstəqilliyin, güclü dövlətçiliyin və inkişafın təminatçısı kimi dəstəkləyir.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***Səbinə MƏMMƏDOVA,***
***"Azərbaycan"***